DOI:10.30546/gdu.3.2024

UOT:94.

# AZƏRBAYCAN RESPUBLİKASINDA GƏNCLƏRİN İCTİMAİ-SİYASİ FƏALLIĞININ YÜKSƏLMƏSİNDƏ DÖVLƏT SİYASƏTİ

***Şamilova Aysel Məhəmməd gızı***
***Sumqayıt Dövlət Universiteti***
***aysel.yaqubova5@mail.ru***
***ORCID ID code: 0000-0001-7531-9081***

**Xülasə.** *Məqalədə gənclər siyasətinin inkişafı və həyata keçirilməsinin xüsusiyyətləri, gənclərin inkişafının əsas istiqamətləri araşdırılmış, dünyanın digər ölkələrində gənclərin inkişafındakı fərqlər təhlil edilmiş, eləcə də burada gənclər arasında mümkün qarşılıqlı əlaqə formaları tədqiq edilmişdir.*

*Azərbaycan Respublikasında gənclər siyasətinin formalaşmasını və inkişafını müəyyən edən faktorların öyrənilməsi, həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərinin, vasitə və formalarının öyrənilməsi gənclərin ictimai-siyasi dəyişikliklərdə iştirakı formalarının nəzərdən keçirilməsi və bu siyasətin yaxın perspektivdə daha da təkmilləşdirilməsi üçün tövsiyələrin hazırlanması olduqca zəruridir.*

*Azərbaycanda dövlət gənclər siyasəti dövlətin yeni həyata başlayan gənc nəslin özünü dərk etməsi və gənclərin inkişafı üçün hüquqi, iqtisadi, təşkilati şərait və təminatların yaradılmasına yönəlmiş fəaliyyətidir. Bundan başqa, dövlət gənclər siyasətinin hüquqi tənzimlənməsi həm beynəlxalq hüquqi sənədlərə, həm də milli qanunvericilik və normativ bazaya əsaslanır.*

*2003-cü ildən bəri Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində daha çox təcrübə qazanılmışdır. Bu gün gənclər siyasəti təcrübəsinin tədqiq edən elmlər, o cümlədən tarix elmi qarşısında müstəqillik illərində Azərbaycan Respublikasında həyata keçirilən dövlət gənclər siyasətinin gedişini, xüsusiyyətlərini, nəticələrini araşdırmaq, bununla da, dövlətin gənclərlə bağlı strategiyanın təkmilləşdirilməsi üçün təklif və layihələr hazırlamaq kimi məsuliyyətli vəzifələr durur.*

**Açar sözlər:** Azərbaycan, dövlət, gənclər, siyasət, qanun, idarəçilik, iştirak

**Ключевые слова:** Азербайджан, государство, молодежь, политика, закон, управление, участие.

**Keywords:** Azerbaijan, state, youth, politics, law, management, participation

**Giriş.** Qloballaşma şəraitində baş verən əsas siyasi və iqtisadi proseslər fonunda dünyanın bir çox yerlərində gənclərin həyat şəraitini optimallaşdırmaq və onların cəmiyyətin, dövlətin idarəçiliyində bilavasitə iştirakını təmin etmək üçün çoxsaylı proqramlar və layihələr hazırlanır və həyata keçirilir. Son vaxtlar inkişaf etmiş ölkələrdə ictimai-iqtisadi münasibətlərin gedişində gənclər, gənclər təşkilatları fəal rol oynayır. Çünki gənclər hər bir dövlətin və millətin gələcəyi, onun inkişafının və yüksəlişinin əsasıdır. Politoloqlar hesab edirlər ki, cəmiyyətin siyasi həyatında, idarəçilik sisteminin optimallaşdırılmasında dövlətin gənclər siyasətinin düzgün müəyyənləşdirməsi və həyata keçirməsi mühüm rol oynayır.

Azərbaycan Respublikasında gənclər siyasətinin formalaşmasını və inkişafını müəyyən edən faktorların öyrənilməsi, həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərinin, vasitə və formalarının öyrənilməsi gənclərin ictimai-siyasi proseslərdə iştirakı formalarının nəzərdən keçirilməsi və bu siyasətin yaxın perspektivdə daha da təkmilləşdirilməsi üçün tövsiyələrin hazırlanması olduqca zəruridir.

**Əsas hissə.** Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə əhalisinin 2,6 milyonunu və ya 27,1 faizini gənclər təşkil edir [11].

DOI:10.30546/gdu.3.2024

Qeyd edilməlidir ki, müstəqillliyimizin bərpasından sonra, xüsusi ilə də 1993-cü il 15 iyundan başlayaraq dövlət tərəfindən gənclər siyasətinin normativ-hüquqi bazasının formalaşması, inkişafı, təkmilləşdirilməsi və möhkəmləndirilməsi üçün bir sıra mühüm qanunlar və proqramlar qəbul edilmişdir. “Gənc ailə” Proqramı (16 fevral 1999-cu il), “Vətənpərvərlik və vətəndaşlıq hisslərinin artırılması proqramı” (17 fevral 1999-cu il), “Valideynlərini itirmiş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu. “Valideyn himayəsindən məhrum olmuşlar” (22 iyun 1999-cu il), “Dövlət gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı (29 iyul 1999-cu il), “Təhsil işinin təkmilləşdirilməsi və uşaqların hüquqlarının müdafiəsi üzrə Dövlət Proqramı” (22 iyun 1999-cu il) qəbul edilmişdir. “Sosial, iqtisadi və digər problemlərin həlli, istedadlı yeniyetmələrin və istedadlı gənclərin bacarıqlarının inkişaf etdirilməsi üzrə Dövlət Proqramı” (4 avqust 2000-ci il), “Hərbi xidmətdə olan şəxslərin işlə təmin olunması proqramı” (23 avqust, 2000), “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu (9 aprel 2002) və digərləri bu sırada ən mühümləridir [6].

Bu istiqamətdə 2003-cü ildən sonra, xüsusi ilə də 2016-cı ildən başalayaraq qəbul edilən qərarlar, proqramlar və layihələr cəmiyyətimizdə baş verən ictimai-siyasi proseslərin gedişi və məzmunu ilə bağlı olaraq gənclər siyasətinin yeni və daha səmərəli mərhələsinin gedişini bir növ istiqamətləndirmiş, tənzimləyici rol oynamışdır [8, c.56]. Bu növdən olan dövlət sənədləri çox olduğu üçün biz onların bir qrupundan bəhs etməli olduq.

Bu qanunların və digər dövlət əhəmiyyətli sənədlərin ssırasında Prezident İlham Əliyevin “Azərbaycan Respublikasının 2015-2025-ci illər üçün gənclərin inkişaf strategiyasının təsdiq edilməsi haqqında” Sərəncamının əhəmiyyətini ayrıca qeyd etmək istərdik [7, s.1]. Bu proqram həm bizim tədqiq etdiyimiz dövrü, həm də növbəti beş ili əhatə etməsi ilə gənclər siyasətinin yaxın perspektivdə də planlaşdırılmasının zəruriliyindn xəbər verir. Bu amil bir sıra parametrlər baxımından, o cümlədən, cəmiyyətimizdə əldə edilmiş hərtərəfli sabitliyin daha da möhkəmlənməsi üçün olduqca vacibdir.

Əvvəlki illərdə mövcud olmuş ənənələrin davamı olaraq qəbul edilmiş qanunların və qərarların sırasında “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Proqramı [1, s.1] gənclərin fəaliyyətinin inkişafı və tənzimlənməsi üçün əsas sənədə çevrilməsini xüsusi olaraq qeyd etməliyik.

Proqramım əsas prinsiplərindən biri kimi dövlətin idarəetmə sistemində gənclərin iştirakının artırılması diqqət mərkəzində saxlanılmışdır.

2016-2020-ci illərdə ölkədə həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərinin, prinsiplərinin, metodlarının, vasitə və formalarının tədqiqi ictimai-siyasi proseslərin gedişində gənclərin iştirakını, rolunu və yerini qiymətləndirməyə kömək edir.

Qətiyyətlə qeyd edə bilərik ki, Azərbaycan gəncliyinin dövlət müstəqilliyinin əldə etməsinin ardınca 2003-cü ildən bəri onun daha da möhkəmləndirilməsində böyük xidmətləri olmuşdur [4, s.3].

Hazırda ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-mədəni həyatında gənclərin fəal iştirakının təmin olunması, layiqli vətəndaşlar kimi formalaşmaları üçün bütün şərait yaradılmışdır. Ümumiyyətlə, gənc nəslə diqqət və qayğının artırılması, gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyənləşdirməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət rəhbəri kimi çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə gənclər siyasəti də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Gənclər üçün yeni imkanlar yaradılıb, dövlət onların hərtərəfli inkişafına mühüm töhfə verir. Bu gün dövlət gənclərlə iş üzrə ixtisaslaşmış qurumlara malikdir. Onların arasında Prezident Administrasiyasının Gənclər siyasəti və idman

DOI:10.30546/gdu.3.2024

məsələləri şöbəsinin, Milli Məclisin Gənclər və idman komitəsinin, Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Eyni zamanda, Azərbaycanda gənclər sektorunda 300-ə yaxın qeyri-hökumət təşkilatı fəaliyyət göstərir [5, s.3]. Gənclərimizin xeyli hissəsi müxtəlif tədqiqat mərkəzlərində çalışır. Azərbaycan gəncləri çox böyük uğurlar qazanıblar və təbii ki, bunun əsasını gənclər sahəsində aparılan uğurlu dövlət siyasəti təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: *“Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərir, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər”* [2, s.242-243].

Qeyd edilməlidir ki, 2016-2020-ci illər bu baxımdan xüsusi ilə fərqli, həm də zəngin olmuşdur.

Bu illərdə gənclər siyasətinin yeni fərqli prinsipləri müəyyənləşdirilmiş, bu sahədə daha səmərəli fəliyyət üçün təkmilləşdirilmiş normativ-hüquqi baza daha da təkmilləşdirilmiş, gənclər siyasətini həyata keçirən dövlət strukturlarının fəaliyyətində ciddi dönüş yaradılmış, gəncliyin ölkəndə ictimai-siyasi proseslərdə daha fəal iştirakı üçün, mövcud problemləri həll edə biləcək növbəti proqram və layihələr həyata keçirilmişdir.

Prezident İlham Əliyev 2016-2020-ci illərdə gənclər siyasətinin məzmunundakı mühüm keyfiyyət dəyişiklikləri, yenicə müəyyən edilmiş prioritetlər, gənclərin bilik və bacarıqlarından istifadə edilməsi, cəmiyyət həyatında layiqli rol oynamasını təmin edən şəraitin yaradılması istiqamətində həyata keçirilən səmərəli tədbirlər barədə gənclərlə keçirdiyi görüşlərdə dəfələrlə bəhs etmişdir.

Dövlət 2016-2020-ci illərdə əvvəlki dövr ilə müqayisədə indi daha ardıcıl, qətiyyətli şəkildə gənclərin tərbiyəsi, mənəvi inkişafı, işlə təmin olunması, təhsili və fiziki sağlamlığı ilə bağlı problemlərin yüksək səviyyədə, indiki çağırışlara cavab verə biləcək səviyyədə həll edilməsinə diqqət və qayğını bir an belə zəiflətməmiş, bunlara xüsusi diqqət yetiriməklə bərabər, təhsil sisteminin bütün pilllələrində islahatların aparılması, o cümlədən, məktəblərin və məktəbəqədər təhsil müəssisələrinin kütləvi şəkildə tikintisi, bərabərhüquqlu təhsilin təmin etdirilməsi, milliyyətindən, dinindən və sosial rifahından asılı olmayaraq hər bir gəncin yüksək keyfiyyətli təhsilə çıxışı üçün genişmiqyaslı səmərəli proqramların həyata keçirilməsini diqqət mərkəzində saxlamışdır (10).

Əldə edilmiş böyük uğurların mühüm bir hissəsini orta və ali təhsil sisteminə informasiya texnologiyalarının tətbiqi sahəsində aparılmış islahatlar nəticəsində böyük uğurların əldə edilməsi təşkil edir. Dövlətin gənclər siyasətinə eyni yanaşmasının nəticəsidir ki, istər paytaxtda, istərsə də regionlarda müasir olimpiya komplekslərinin tikilməsi idmanın gənclər arasında kütləviliyinin təmin edilməsinə gətirib çıxarmış, mədəniyyət, elm sahələrində, habelə gənclərin digər fəaliyyət sahələrində də potensialının üzə çıxarılması üçün yüksək göstəricilərin əldə edilməsinə səbəb olacaq stimullaşdırıcı, həvəsləndirici funksiyalarının daha da gücləndirilməsi getdikcə özünü daha çox hiss etdirmişdir. Azərbaycanda gənclərin vəziyyəti, gənclərlə bağlı həyata keçirilən siyasət nəticəsində onların sosial, iqtisadi problemlərinin həlli məqsədi ilə həyata keçirilən tədbirlərin nəticələri ictimai-siyasi sabitliyin təmin edilməsi, vətəndaş həmrəyliyinə nail olunması üçün olduqca səmərli olmuşdur.

İndiki çağırışlara cavab vermək məqsədlə qəbul edilmiş proqram və layihələrin məzmunu və tətbiqinin nəticələrini əsaslı şəkildə təhlil edilməsindən məlum olmuşdur ki, gənclərimizin milli-vətənpərvərlik ruhu Azərbaycanın gələcəyinin etibarlı əllərdə olduğunu

DOI:10.30546/gdu.3.2024

deməyə əsas verir. Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli təfəkkürə malik gənc nəsil artıq formalaşmışdır.

Onu da qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclərin mənəvi tərbiyəsinin yaxşılaşdırılması, onların ölkənin layiqli vətəndaşları kimi yetişmələri üçün irəli sürdüyü fikir və ideyaların həyata keçirilməsinin nəticələri bütövlükdə qarşıdan gələn illər üçün də sabit, etibarlı baza deməkdir [9].

Xüsusi olaraq diqqət çəkən məqamlardan biri də dövlətin gənclərin mədəni-mənəvi inkişafı sahəsində həyata keçirdiyi strateji kursun əsas məzmununun təkzibedilməz faktlarla əsaslandırılmasıdır.

Ümumiyyətlə, gənclərimizin ictimai, siyasi, mədəni həyatda iştirakının genişləndirilməsi, gənclər təşkilatlarının yaradılması və inkişafı istiqamətində həyata keçirilən işlər də mühüm əhmiyyət kəsb etmişdir.

Gənclər təşkilatlarının sosial-iqtisadi xarakterli problemlərinin həlli istiqamətində fəaliyyətin səmərəliliyinin gücləndirilməsinə mühüm diqqət yönəldilməsi 2016-2020-ci illərdə dövlətimizin gənclərlə bağlı siyasətinin məzmununda ən mühüm sahələrdən biri olaraq qalmışdır.

Bu illərin hər birində cəmiyyət həyatının bütün sahələrində gənclərin və onun müxtəlif qruplarının yerini və rolunu müəyyən edən sənədlərin öyrənilməsi gənclərin hüquq və təminatlarına dair yeni normativ hüquqi sənədlərin hazırlanması istiqamətində məqsədyönlü iş aparılmışdır.

Araşdırmalarımızın əhəmiyyətini artıran məqamlardan biri də budur ki, gənclərimizin beynəlxalq əlaqələrinin inkişafı, cəmiyyətimizdəki siyasi sabitliyi təmin edən proseslər barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində səmərəli fəaliyyətinin nəticələri əhalinin müxtəlif kateqoriyalarının təmsilçiləri tərəfindən razılıqla qarşılanır. Bunu tədqiq olunan illərdə müxtəlif beynəxalq təşkilatların apardığı rəy sorğularının nəticələri də təsdiq edir.

Daha bir yenilik bu olmuşdur ki, dövlət strukturlarının və qeyri-dövlət təşkilatlarının gənclər siyasətinin həyata keçirilməsi sahəsində qazandıqları təcrübənin təhlilinə xüsusi diqqət yetirilmişdir.

Azərbaycanda gəncliyin ictimai-siyasi proseslərdə fəal iştirakının nəticələrindən biri kimi İkinci Qarabağ müharibəsində əldə etdiyimiz parlaq tarixi Qələbədə gənclərin böyük rol oynamasının xüsusi ilə qeyd edilməsidir.

Azərbaycanda gəncliyin sosial-iqtisadi problemlərinin həlli, ictimai-siyasi proseslərdə fəal iştirakının nəticələri bizə deməyə imkan verir ki, perspektivdə daha da böyük uğurlarımız üçün gənclər tərəfindən dövlətin böyük təminatı var.

İlham Əliyev demişdir: “Bizim gənclərimiz müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir. Azərbaycanda könüllülər hərəkatı geniş vüsət alıbdır. Mən bunu alqışlayıram. Təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işləyir, xeyir gətirir. Könüllülər hərəkatının xüsusi əhəmiyyəti vardır. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir və təsadüfi deyil ki, bu sahədə gənclər öz rolunu oynayır [2, s.242-243].

2020-ci ildə 44 günlük Zəfər müharibəsində tarixi qləbəmizin qazanılmasında gənclərimizin Milli Ordumuzun sıralarında göstərdikləri misilsiz şücaətlər dövlət başçısının gözləntilərinin nə qədər doğru və uzaqgörənlik olduğunu bir daha təsdiq etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: “Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək, xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş və 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazmışdırır” [3, s.230].

DOI:10.30546/gdu.3.2024

Beləliklə, Vətən Müharibəsi bir daha sübut etdi ki, ölkədə vətənpərvər, güclü, milli ruhda formalaşmış, Vətən uğrunda canını fəda etməyə hazır olan gənclər var.

**Nəticə.** Apardığımız araşdırmalar nəticəsində gəldiyimiz qənaətlərdən ən əsası budur ki, 2016-2020-ci illərdə dövlətimizin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-mədəni həyatında gənclərin fəal iştirakının təmin olunması, cəmiyyətimiz üçün layiqli vətəndaşlar kimi formalaşmaları, bütövlükdə gənc nəslə diqqət və qayğının artırılması, dövlətin gənclərlə bağlı siyasətinin əsas prinsiplərinin müəyyənləşdirməsi Azərbaycan Respublikasında ictimai-siyasi proseslərin əsas istiqamətlərindən biri olmuşdur.

Məlum olmuşdur ki, Prezident İlham Əliyevin birbaşa göstərişləri əsasında 2016-2020-ci illərdə gənclər siyasətinin əsas prinsipləri müəyyənləşdirilmiş, bunların səmərəli icrası üçün müvafiq normativ-hüquqi baza yaradılmış, gənclər siyasətini həyata keçirən dövlət strukturlarının fəaliyyəti daha da intensivləşdirilmiş, gənclərin cəmiyyət həyatının bütün sahələrini əhatə edən ictimai-siyasi prosesssslərdə fəal iştirakına dəstək verən, bütün problemlərinin həllini təmin edən proqram və layihələr həyata keçirilmişdir.

### *Ədəbiyyat*

1.“Azərbaycan gəncliyi 2017–2021-ci illərdə” Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Azərbaycan // 16 sentyabr 2017. s.1.
2.Əliyev İlham. İnkişaf - məqsədimizdir. Doxsan ikinci kitab. yanvar 2019 - fevral 2019. Azərnəşr, Bakı: - 2019. - 392 s.
3.Əliyev İlham. İnkişaf - məqsədimizdir. Yüz iyirmi beşinci kitab. yanvar 2023 - fevral 2023. Azərnəşr, Bakı: - 2023. - 392 s.
4.Əliyeva İ. Gənclər siyasəti dövlətimiz üçün hər zaman prioritet olub // Azərbaycan. 13 fevral 2022., s.3.
5.Ələsgərova İ. Gəncliyin inkişafı Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir : 2 fevral Gənclər Günüdür // Xalq qəzeti. - 2017. - 2 fevral. - s. 3.
6.“Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: Gənclər siyasəti ilə bağlı normativ hüquqi sənədlər toplusu, 2009, 373 s.
7."2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 26 yanvar 2015-ci il // Azərbaycan. - 2015. - 27 yanvar. - s. 1.
8.Габибова Зияфет Зия, Абдуллаева Мафтуна Рашид // Особенности современной молодежной особенности современной молодежной политики Азербайджана в свете современных международных тенденций // Хуманитарни Балкански изследвания. 2020. Т. 3. № 1(7). с.55-58.
9.Молодежная политика Президента Ильхама Алиева является примером для всего мира - АНАЛИЗ / https://www.trend.az/azerbaijan/politics/3549531.html
10.Положение молодежи в Азербайджане. Аналитический отчет. Коллективный автор. 2007. https://unesdoc.unesco.org/ark:/48223/pf0000157806_rus
11.Проблемы азербайджанской молодежи успешно решаются / https://az.sputniknews.ru/20180201/molodezh-azerbajdzhana-karabah-den-molod-413867731.html

DOI:10.30546/gdu.3.2024

## STATE POLICY IN INCREASE OF SOCIAL AND POLITICAL ACTIVITY OF YOUTH IN THE REPUBLIC OF AZERBAIJAN

***Shamilova Aysel Muhammed***

***Summary***

In the article, the characteristics of the development and implementation of youth policy were determined and studied, the main directions of youth development were investigated, the differences in the development of youth in other countries of the world were analyzed, as well as possible forms of interaction between young people were studied here.

It is very necessary to study the factors that determine the formation and development of youth policy in the Republic of Azerbaijan, to study the main directions, means and forms of the implemented state youth policy, to review the forms of participation of young people in social and political changes, and to prepare recommendations for further improvement of this policy in the near future.

The state youth policy in Azerbaijan is the activity of the state aimed at creating legal, economic, organizational conditions and guarantees for the self-awareness of the young generation starting a new life and the development of young people. In addition, the legal regulation of state youth policy is based on both international legal documents and national legislation and normative framework.

In 2003, an important experience was gained in the field of implementation of the state youth policy in the Republic of Azerbaijan. Today, the sciences that study the experience of youth policy, including the science of history, face the responsibility of researching the progress, characteristics, and results of the state youth policy implemented in the Republic of Azerbaijan during the years of independence, and thereby preparing proposals and projects for the improvement of the state's youth strategy.

## ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА ПО ПОВЫШЕНИЮ СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКОЙ АКТИВНОСТИ МОЛОДЕЖИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

***Шамилова Айсель Мухаммед кызы***

***Резюме***

В статье определены и изучены особенности разработки и реализации молодежной политики, исследованы основные направления развития молодежи, проанализированы различия в развитии молодежи в других странах мира, а также возможные формы Здесь изучалось взаимодействие между молодыми людьми.

Весьма необходимо изучить факторы, определяющие формирование и развитие молодежной политики в Азербайджанской Республике, изучить основные направления, средства и формы реализуемой государственной молодежной политики, пересмотреть формы участия молодежи в общественной жизни. и политических изменений, а также подготовить рекомендации по дальнейшему совершенствованию этой политики в ближайшем будущем.

Государственная молодежная политика в Азербайджане – это деятельность государства, направленная на создание правовых, экономических, организационных условий и гарантий для самосознания молодого поколения, начинающего новую жизнь, и развития молодежи. Кроме того, правовое регулирование государственной молодежной политики базируется как на международно-правовых документах, так и на национальном законодательстве и нормативной базе.

DOI:10.30546/gdu.3.2024

В 2003 году был накоплен важный опыт в сфере реализации государственной молодёжной политики в Азербайджанской Республике. Сегодня перед науками, изучающими опыт молодёжной политики, в том числе перед наукой историей, стоит задача исследования хода, особенностей и результатов государственной молодёжной политики, реализуемой в Азербайджанской Республике в годы независимости, и тем самым подготовить предложения и проекты по совершенствованию молодежной стратегии государства.

***Rəyçi: dosent Məmmədov Rafael Yusif oglu.***
***Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının 27.03.2024-cü il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olma tarixi 18 sentyabr 2024-cü il***